**Saday Ağa oğlu Əlizadə** [129]

**M.FÜZULİNİN "HƏDİQƏTÜS-SÜƏDA" ƏSƏRINDƏ QADIN OBRAZLARI**

**Giriş.** Klassik ədəbiyyatda qadına münasibət həmişə birmənalı olmamışdır. Bəzən riya, yalan, ikiüzlülük, xəyanət mənbəyi kimi qiymətləndirilmiş, bəzən də Nizami kimi sənətkarların qələmində yüksək məqama sahib olmuşdur. Böyük sənətkar Nizami Gəncəvi öz yaradıcılığında bir-birindən maraqlı qadın obrazları yaradaraq onları görmək istədiyi zirvəyə qaldırmışdır. Dövrün qadınları özlərinin də sevmək, sevilmək hüququnun olduğunu unutduğu halda, şairin Leylisi sevir, sevilir, öz müqəddəs eşqini qəlbində pünhan saxlasa da, bu sevgi ilə əbədiyyətə qovuşur. Hökmdar kimi Azərbaycan məmləkətini idarə edən, xalqını sülh içində qoruyub saxlayan Nüşabə İskəndər kimi ölkələr fəth edən bir cəngavərə dərs verir, onun rəğbətini qazanır. Mənən ziddiyətlərlə dolu olan Xosrova isə məhz Şirinin məhəbbəti nüfuz edərək onu kamilləşdirir.

Nizami ənənələrinə sahib çıxan Məhəmməd Füzulinin, qadını necə ilahi məhəbbətlə təsvir və tərənnüm etdiyini görmək üçün "Leyli və Məcnun" poemasının adını çəkmək kifayətdir. Lakin şairin "Hədiqətüs-süəda" əsərini də nəzərdən çıxartmaq olmaz. Bu əsərdə müxtəlif qadın obrazlarına yer verilmişdir ki, onların bir çoxu epizodik obrazlar kimi çıxış etsə də, bəziləri xüsusən də xanım Fatimə obrazı əsas diqqət mərkəzində dayanmaqdadır. Əlavə olaraq əsər boyu biz Həvva, Yəhuda, İqlimya, Hacər, Züleyxa, Xədicə, Ümm Sələmə, Asiyə, Məryəm binti İmran, Sara, Ümm Külsüm, Cudə (Cə`də) kimi qadın obrazlarını tanıyırıq.

**Əsas hissə.** Əsərin əvvəlinci babında biz Adəm ilə Həvvanın qadağan olunmuş meyvəni yediklərinə görə cənnətdən qovulduqlarına şahid oluruq. Etdikləri əməlin cəzası olaraq onlar dünyaya göndərilirlər. Adəm Sərəndib vadisində, Həvva isə Hind okeanının sahilinə düşür və iki yüz il bir-birlərinin həsrəti ilə pərişanlıq çəkirlər, əşki-nədamət tökürlər. Bir gün Cəbrayıl Allahın izni ilə Adəmin yanına gəlir bu zaman Adəm ondan Həvvanın halını soruşur və biz bu hissədə Cəbrayılın dili ilə Həvvanın necə böyük məhəbbət ilə Adəmi sevdiyini görürük. Belə ki, Həvva suç işləməsinə, cənnətdən qovulmasına deyil də, Adəmdən ayrı olmasına görə qan-yaş tökür, daim ah-nalə çəkir. Bu xəbərdən sonra Adəm bihuş olur və aləmi-müraqibətdə görür ki, Həvva dəryanın sahilində sel kimi gözyaşı tökərək deyir ki, "Ey həbibim Adəm, acmısan, toxmusan, geyimlimisən, çılpaqmısan, yatmışsan, yoxsa oyaqmısan"?

Burada əsas diqqətimizi çəkən Həvvanın böyük dünyada təkbaşına yaşayan bir qadın, zülm və zillət əsiri olmasına baxmayaraq özünü deyil də sevdiyini düşünməsində, onun üçün ah-nalə etməsindədir.

Adəm onun sualına cavab vermək istəyərkən özünə gəlib ayılır və Həvvanı yanında görmədikdə bir nalə qoparır ki, Cəbrayıl soruşur "ey Adəm bu nə halətdir?" Adəm yuxusunu danışdıqdan sonra Cəbrayıl bu xəbərdən təsirlənir və Allaha dua edir ki, Adəmə rəhm etsin. Allah da onların tövbəsini qəbul edir...

Birinci babın birinci fəslində yer alan digər qadın obrazları isə Adəm və Həvvanın qızları olan Yəhuda və İqlimyadır ki, onlar haqqında şair geniş danışmır sadəcə İqlimyanın Yəhudadan daha gözəl olduğunu qeyd edir ki, bu gözəllik də Qabilin Habili öldürməsinə gətirib çıxarır.

Birinci babın üçüncü fəslində Həzrəti İbrahim Xəlilin müsibətlərindən söz açılır və bu hissədə onun övladı İsmayıl ilə imtahana çəkilməsi də təsirli şəkildə ifadə olunur. Belə ki, Xəlilin övladına olan məhəbbəti o qədər böyük idi ki, onun qəlbini tamamən tutur və bu zaman yuxuda ona İlahidən bir nida gəlir ki, "Ey ümmətin başçısı, əgər mənim yolumda, mənə sevgində sabitqədəmsənsə, məndən başqasından rəğbətni götür və bu məftunu olduğun övladının həyat kəndirini qılıncla kəs".

İbrahim yuxudan oyandıqda həyat yoldaşı Hacərə deyir ki, "Ey mehriban həyat yoldaşı, İsmayıla yeni libas geyindir, dost qonağı olacaq". Hacər oğlunu geyindirib-hazırladıqda İbrahim deyir ki, bir ip və bir xəncər də hazır et".

Hacər dedi: "Ey Xəlilullah, dostun söhbəti birliyə, yaxınlığa səbəb olur. Axı xəncər kəsmək, ayırmaq alətidir. İp isə düyünləmək alətidir, onda bəs bunlar niyə vacibdir?

Xəlilullah deyir ki, "şayəd bir qurban etmək lazım gəlsə, bağlamağa və kəsməyə xəncərlə ip lazım olacaq.

Bundan sonra İbrahim və İsmayıl Hacərə vida edib yola çıxırlar. Hacər isə çaşqın halda fikir burulğanına düşür. Bu zaman İblis fəsad törətmək üçün bir saleh qoca surətində peyda olub Hacərin yanına gəlib deyir: "Ey salehə, bilmirsən, İbrahim və İsmayıl hara getdilər?" Hacər cavab verir ki, "bir dost ziyafətə çağırıb ora getdilər". İblis bu dəfə deyir: "Ey qafil, səhv düşünürsən, İbrahim İsmayılın qanını tökmək istəyir. Xəncər və ipdən fikrinin nə olduğunu bilmədinmi?"

Bu hissədə Füzuli yazır ki, İblisin bu sözlərdən bir niyyəti vardı. O bilirdi ki, qadın tayfası həssas qəlbə malikdir və onların səbr-səbatı da azdır. İstəyirdi ki, Hacər bu xəbərdən təsirlənib iztirab çəkə və Xəlilin niyyətinə mane ola. Lakin Hacərin cavabı belə olur: "Ey qoca, əcəb ki, sən İblis olmayasan? Çünki Xəlil özgələrin qətlindən çəkinən biridir. İsmayıl ki, yari-vəfadır, ona cəfanı rəva görərmi?" İblis deyir: "Ey Hacər, vaqiəsində bu ona əmr edilmişdir". Hacər İblisə belə cavab verir: "Xəlil yalançı deyil, Allahın fərmanı bu xüsusda olubsa, bəla xəncərinin zülalı, əbədiyyət çeşməsinin suyudur və İsmayılın qanı lalə gülzarının ən yaxşısıdır". Bundan sonra İblis Hacəri yoldan çıxara bilməyəcəyini görüb ondan naümüd olur və yolunu dəyişir...

Hacərlə İblisin dialoqunu əks etdirən bu hissə peyğəmbər xanımının iradəsini, yoldaşına olan hədsiz güvən və etibarını, eyni zamanda Allaha olan bağlılığını tam aydınlığı ilə əks etdirir. Belə ki, İblisin bütün vəsvəsələrinə rəğmən Hacər İbrahimə olan etibarını itirmir, qəflətə düşmür. Ən sonda İblisə öz kəskin cavabını verir, deyir ki, əgər həqiqətən də İbrahim İsmayılı qurban etməyə aparıbsa, həqiqətən də Allahın əmri bu yöndədirsə, İsmayılı qurban

[129] Bakı Dövlət Universitetinin magistrantı sadayalizada@gmail.com

edəcək xəncərin zülalı, əbədiyyət çeşməsinin suyudur və İsmayılın qanı bütün laləlikdən əkməldir. Bu kiçik hissə oxucuya Hacərin necə böyük inam və etiqada sahib olduğunu bütün aydınlığı ilə çatdırır.

Hədiqətüs – süəda əsərində yer alan qadın obrazlardan biri də Züleyxa obrazıdır. Füzuli nəql edir ki, Misir əzizi Yusifi Malikdən alıb Züleyxanın xidmətinə verdikdə Züleyxa ona aşiq olur. Lakin şairə görə Züleyxanın eşqi, sevgisi həqiqi deyildi. Çünki Füzulinin yaratdığı aşiqlər eşqin əzabından qaçan yox, özünə "bəlayi-eşq" arzu edən olublar. Ancaq Züleyxa məlamətə tab gətirməyib özünə rahatlığı məşuquna isə əzab-əziyyəti rəva görür və Yusifin paltarına yırtıq töhməti vurub onu zindanda əziyyətə məhkum edir. Buna görə də şair "eşqi-Züleyxa aludeyi-məcaz idi" deyir. Marağlıdır ki, Füzuli bu məsələdən ötəri bəhs edir. Aida Qasımova bununla bağlı yazır ki, *"Füzuli Hədiqətüs-süəda"da Yusif hekayətini özünəməxsus orijinal bir tərzdə təqdim edir. Ruhuna, ürəyinə yaxın olayları geniş, əhatəli söyləsə də bir sıra hadisələrə qısaca toxunur. Məsələn, əsərdə Züleyxanın Yusifə məhəbbət bəsləməsinə çox yığcam və ötəri şəkildə söz açılır. Görünür Züleyxanın şəhvani məhəbbəti ülvi, pak eşqi tərənnüm edən Füzuli qəlbinə yad olduğundan o, bu hadisədən çox danışmır. Lakin şair bu olayla bağlı Yusifin başına gələn bəlaları o genişliyi ilə söyləyir"* [1, s. 279].

Əsərin bu hissəsində Züleyxa obrazının başqa mənfi cəhətləri, məkrli əməlləri də üzə çıxır. Zülyexa əmr edir ki, Yusifi zəncirlə bir dəvəyə mindirib Misirin küçələri ilə gəzdirsinlər və car çəksinlər ki, "öz ağasının hərəminə xəyanət edənin cəzası budur".

Yusifin əslində heç bir xəyanətdə günahı olmadığı halda, onu xəyanətkar damğası ilə xalqın arasında utandırmaq, əzmək istəyir. Lakin Füzuli yazır ki, bu xəbər yayıldıqda Misirin bütün qapı-bacası "nəzzarə əhli" ilə doldu. Yəni, insanlar küçəyə axışıb ona tamaşa edirlər. Ancaq *"müşahideyi-cəmali-Yusuf əhli-Misri qayəti-heyrətdən surəti-divar qıldı"* [2, s .66]. Züleyxa onu rüsvayi-cahan etmək istədiyi halda, insanlar Yusifin gözəlliyi qarşısında heyrətdən donub sanki daşa, divara dönüşürlər və bütün sözləri duymaz, böhtanlara isə kar qalırlar.

"Hədiqətüs-süəda" əsərində diqqətçəkən qadın obrazlarından biri də Xədiceyi-Kübradır. Şair "Rövzətül-şühəda"ya əsaslanaraq qeyd edir ki, *"Xədicə hamilə olduqda Rəsul buyurdu ki: Ey Xədicə, Cəbrail bana xəbər verdi ki, sədəfi-bətnində olan lö`lö`i-şahvar bir səbiyyədir Fatimə nam ki, anın nəsli cəvahiri-rişteyi-imtidadi-zəman olub, Qiyamətədək təsəlsül bula və ol silsileyi-cəvahir gərdənbəndi-ərusi-kainat ola"* [2, s. 121]. Yəni bətnində olan uşaq qızdır və adı Fatimədir ki, onun nəsli uzun ömür sürəcək və Qiyamətədək yaşayaraq gözəl kainatın zinəti olacaqdır.

Bu sətirlərdən sonra Füzuli başqa bir rəvayətə diqqət yetirir. Qeyd edir ki, doğum vaxtı yetişəndə Xədicə Qüreyş qadınlarından bir qabilə (mamaça) istəyir. Qüreyş qadınları isə cavab olaraq deyirlər ki, *"Sən bizə asi olub Əbu Talib kəfalətində olan yetimə razı oldun, biz sənə intisab etməkdən ar edəriz"* [2, s. 121].

Xədicə bu sözlərdən çox təsirlənir. Bu vaxt dörd qadın gəlib ona təzim edirlər. Xədicə onların ərəb qəbiləsindən olduğunu düşünüb kimlərdən olduğlarını soruşduqda cavab belə olur: *"Ey Xədicə, Haq bizi sənin xidmətinə məmur etdi"* [2, s. 122].

Bu xatunlardan biri Xəlil peyğəmbərin zövcəsi Sara, biri İmran qızı Məryəm, biri Musanın bacısı Külsüm, biri də Fironun zövcəsi Asiyə idi...Əsərin bu hissələrində Xədicə haqqında geniş məlumatlar olmasa da, bizdə onun barəsində müəyyən təsəvvürlər oyadır. Belə ki, o, peyğəmbərin yetim, eyni zamanda var-dövlətsiz olmasını bildiyi halda ona razı olur. Onun dəyəri İlahi mərtəbədə o qədər yüksək olur ki, Fatiməni dünyaya gətirərkən dörd müqəddəs qadın ona yoldaşlıq edir, xidmətində durur.

Əsərdə ən diqqətçəkən qadın obrazı isə Fatimədir. "Leyli və Məcnun" əsərində Məcnun dünyaya gələndə ağlayıb bir gözəlin qucağında rahatlıq tapır. Şair bununla onun gələcəkdə gözəllik aşiqi olacağına işarə edir. Yəni kiçik bir cəhət obrazın bütün gələcəyini xarakterizə edir. Bu bədii piryom "Hədiqətüs-süəda" əsərinin dördüncü babında özünü göstərir. Fatimənin dünyaya gəlməsindən danışarkən şair onun gözəlliyinə işarə edərək yazır ki, *"Fatimə mütəvəllid oldu. Tahiri-mütəhhər aləmi-vücuda qədəm basdıqda nuri-rüxsarı asimana ələm çəkdi və rahiyeyi-müşkbarından səfheyi-ruyi-zəminə qübari-əbirü ənbər çökdü"* [2, s. 122]. Yəni Fatimə bu dünyaya gəldikdə gözəl üzünün nuru asimana yayılır və gözəl qoxusu yer üzünü bürüyür.

Bu gözəllik barəsində Füzuli Həzrəti Hüseyndən belə bir əhvalat nəql edir:

Bir gün Adəm diqqətlə Həvvaya nəzər salıb onun cəmalın seyr edib deyir ki, "Ey Həvva, görəsən Allah səndən daha gözəl birini yaradıbmı? Bu vaxt Allah Cəbrayıla əmr edir ki, Adəmi cənnətin üçüncü mərtəbəsi olan Firdövsə gətirsin. Adəm bura gələndə görür ki, çox gözəl bir xanım vardır. Cəbrayıldan bu gözəlin kimliyini soruşur və Xanım Fatimə olduğunu öyrənir.

Başqa bir rəvayətdə isə şair ərəb qadınları ilə Fatimə arasında baş vermiş bir hadisədən danışır. Belə ki, bir gün xəvatini-ərəbdən bir dəstə qadın gəlib peyğəmbərə deyir ki, "Ya Məhəmməd, sənə biganə olsaq da eyni şəhərdə yaşayırıq. Bu gün toplantımız var və ərəb qadınları bir yerə yığılır. Xahiş edirik ki, Fatimeyi-Zəhraya da icazə verəsən ki, bizi müşərrəf qıla". Allahın rəsulu rədd cavabı verməyi caiz görmür və onlarn xahişərini qəbul edir. Daha sonra Fatimənin yanına gedib deyir ki, "Ey gözümün nuru, bizə divani-qəzadan hökm olunmuşdur ki, cəfa gördükcə vəfa göstərək və biganəlik müşahidə qıldıqca aşinalıq qılaq...Ey Fatimə, bu gün ərəb qadınları məndən xahiş etdilər ki, onların yığıncağında iştirak edəsən mən də xahişlərini qəbul etdim".

Fatimə cavab verir ki, "ey ata, verdiyin sözə əməl edərəm, amma bilmirəm ki, o məclisə nə kisvətlə(geyimlə) gedəm. Hələ ki, Ütbənin, Şeybənin və Əbu Cəhlin qızları əlvan əlbisələrlə başda oturmuşlar və mən bu yamaqlı paltarlarla ora gedəndə mənə tənələr qılacaqlar".

Bu əsnada Cəbrail nüzul edib dedi: "Ya Rəsulullah hökmdür ki, Fatiməni o məclisə göndərəsən ki, bəxtindən bəzi gizli sirlər ortaya çıxa". Peyğəmbər bunu Fatiməyə bildirdikdən sonra o həmin məclisə yol alır.

Xəvatini-ərəb təkəbbürlə gözləyirdilər ki, Fatimə yamaqlı libası ilə gəlib bizim cah-calalımızı gördükdə həsrət atəşi ilə, utanc alovu ilə yanıb-yaxılacaq və göz yaşları ilə qəm dəryasına batacaqdır. Birdən görürlər ki, gözəl bir xatun məclisə daxil oldu və üzündəki nurun şöləsi hər kəsi heyrətə gətirdi. Onun kim olduğunu bilməyərək, bir-birinə deyirlər ki, *"Aya, bu nə şahzadədir ki, qəbuləmizdə görməmişik"* [2, s. 129]. Təəccübləri çəkildikdən sonra diqqətlə nəzər yetirdikdən sonra başa düşürlər ki, bu Fatimə binti-Rəsulullahdır. Məclisdəki qadınların zatında küfr güclü idi, həsədi həddən ziyadə idi onlar bu gözəlliyə tab gətirə bilmir və məclisi tərk edirlər. Hansıların ki, islahı mümkün idi üzr istəyərək deyirlər: *Ey xanım, səfa gətirdin və bizi torpaqdan götürdün. Mübarək xətrin nə istəyirsə, hökm et hazır olsun.*

Bu hissədə biz xanım Fatimənin necə gözütox, dünya nemətlərində tamahı olmayan və əsas amalının İlahi dəyərlər olduğunu bir daha görürük. Belə ki, o ərəb qadınlarının bu təklifi qarşısında belə cavab verir: *"Əgər bizim riyazi-xatirimüz məqsud isə, zülməti-küfrdən fəzayi-imana çıxın..." [2, s. 130].* Yəni əgər mənim xətrim sizin üçün əzizdirsə, o zaman kafirlik zülmətini tərk edin və iman fəzasına yüksəlin. Məclisin böyük əksəriyyəti baş verən hadisədən və Fatimənin bu sözlərindən təsirlənərək islamı qəbul edir.

Fatimənin bir qadın obrazı kimi digər müsbət cəhətlərini göstərən Füzuli eyni zamanda onu əsl ana kimi də təsvir edir.

Məhəmməd Füzulinin "Hədiqətüs-süəda" əsərinə əsaslanaraq haqqında danışdığımız qadın surətlətinin əksəriyyəti müsbət obrazlar olsa da, bu əsərdə mənfi xarakterli qadınlar da yox deyildir. Bunlardan ən çox diqqət çəkəni əsərin altıncı babında yer alan Cudə və Ənsunə kimi qadın obrazlarıdır. Ənsunə obrazını yaratmaqla Füzuli aralıqda söz gəzdirən, fitnə-fəsad yayan, öz mənfəəti üçün hər cür hiyləgərliyə əl atan qadınların surətini canlandırır. Bu tip insanlar öz qurbanlarını manipulyasiya etmək üçün şirin dillərini işə salaraq niyyətlərinə çatmağa çalışırlar.

Əsərə əsaslanaraq aşağıda qeyd etdiyimiz məqamlara diqqət yetirməklə biz həm Ənsunənin həm də Cudənin əsl üzünü görə bilərik.

İmam Həsənin Mərvan adlı gizli düşməni bir gün Ənsunə adlı bir dəllala deyir: "Ey Ənsunə, Cədə (Cudə) Həzrəti-İmamın hərəmidr...heyfdir ki, bu cür hüsnü cəmalın ömrü pis keçsin, ömrü boyunca iqtidar tapmasın. Mən eşitmişəm ki, Yezid bin Müaviyə dəfələrlə deyib ki, onun (Cudənin) təzvici, yəni ərə getməsi mənə nəsibdir. Ey Ənsunə, əgər Cudənin istəyini İmam Həsəndən yayındırıb bu mühim məsələni həll etsən, bütün arzularının gerçəkləşməsinə kəfiləm". Ənsunə bu əmri qəbul edib İmam Həsən sarayına gedir. Təsadüfən Həzrəti-İmam həmin gün qardaşları ilə gəzintiyə çıxmışdı. Cudə tənha idi. Məlun Ənsunə şirin dilini işə salıb uzun-uzun danışır: "Ey möhtərəm xanım, sənin o vaxtındır ki, gərək məclislərindən heç vaxt eyş-işrət əskik olmaya və kədər yeli sənin gülşənində dolaşmaya. Nə münasibdir ki, ömrün bir zahid həbaləsində sərf ola...Xüsusən də, hər iki gündə bir məhbubəyə meyl edib boşanmaya adət etmişdir və çox qadınlara ayrılıq dərdi vermişdir". Cudə özü də münafiqzadə idi. Əcdadı Hz.Əli qılıncı ilə dünyadan getmişdi. Şübhəsiz bu sözləri eşitdikdən sonra cibilliyətində olan əsəri-nifaq hərəkətə gəlib onu intiqam almağa sövq edir və Ənsunədən çarə soruşur. Ənsunə cavab verir ki, "Ey xatun, bilmiş ol ki, Yezid bin Müaviyə bu xidmət qarşılığında səni xilafətdə hökm sahibi edib öz hərəminə alacaq, amma indi gərək İmam Həsənin dəfinə kömək edəsən".

Bivəfa Cudə İmamın canına qəsd etməyə razı olduqdan sonra Ənsunə həmin mənzildən çıxıb Mərvanın yanına gedir və vəziyyəti ona danışır. Mərvan bir miqdar zəhəri Cudəyə göndərir və Cudə həmin zəhəri bala qarışdırıb Həzrəti-Həsənə verir. İmam zəhərli balı yedikdən sonra bihüzur olur, hal pisləşir, lakin rövzeyi-Rəsulullah üzərnə gedib ərzi-niyaz etməklə şəfa tapır. Bir gün hal-əhval tutmaq üçün yenə Cudənin mənzilinə gəlir. Bu vaxt Cudə ona xurma yeməyi təklif edir. Həzrəti-imam xurmaya razı olur və buyurur ki, gətir. Həzrəti-İmam düşünmədən zəhərli xurmadan yeddi dənə yeyir. Halı yenə pozulur və deyir: "Ey Əsma, bu xurmadan halım pis oldu, səbəb nədir?" İmam oradan çıxıb yenə rövzeyi-Rəsulullaha üz tutur ki, ora dərd əhlinə darüşşəfadır və yenə şəfa tapır.

Bir gün imam havasını dəyişmək, bu bəlalardan uzaqlaşmaq ümüdü ilə Mosula gedir.

Burada da bir nadan var idi ki, Heydəri-Kərarın ailəsinə düşmən idi. Onun gəlişini duyduqda Mosula gəlib əsasının ucuna zəhər vurur və İmamın qulluğuna gəlir. Bir gün əsasını güya bilmədən İmamın mübarək ayağına vurur və yaralayır. Həzrəti-imam ah edib ayaqdan düşür. İmamın dostlar istəyir ki, o bəsirətsizi cəzalandırsın, amma İmam mane olub məsələni Qiyamətə saxlayır. On beş günlük tədbirlərdən sonra şahzadə həmin yaradan nicat tapır. Peyğəmbər övladının canına qəsd edən nadan isə intiqamını aldığını düşünərək Mosuldan çıxıb Dəməşqə gedərkən yolda elə öz əsası ilə öldürülür.

Rəvayətdir ki, İmam yenə Mədinəyə qayıdır, amma Cudənin sarayına getmir. Bu zaman Cudə bir miqdar almaz tozu alıb Həzrəti-İmam olan mənzilə yollanır. Ünvana gəlib çatdıqda görür ki, şahzadə yuxudadır və ətrafdakılar da hər şeydən xəbərsizdir. Sakit-sakit gəlib almaz tozunu Hz.Həsənin su içdiyi kuzəyə tökür və tez oranı tərk edərək öz mənzilinə yollanır. Bu vaxt İmam yuxudan ayılır və Zeynəbi səsləyib su istəyir. Suyu içən kimi əlmasi-sudə mübarək ciyərini parə-parə edir...

İmam Hüseyn kuzənin içindəkini yoxlamaq üçün yerə vurur və zəhər yerə təmas etdikdə torpaq şax-şax olub cuşa gəlir...Qardaşına sual edir ki, *"Ey məxdum, kimə gümanın gəlir?"* [2, s.188]. İmam Həsən cavab verir ki, *"Ey bəradəri-mehriban, bən bildigimi sən dəxi bilirsən, əmma qəmmazlıq bizdən zahir olmaq münasib degil, həm səbr övla və ənsəbdir"* [2, s. 188]. İmamın dəfnindən sonra Mərvan narahat olub Cudəyə deyir ki, "Ey qafil, Hüseyn məsələdən xəbərdardır və səni axtarır". Bir məsəl var ki, "xain xoflu olur". Cudə də bu xof və qorxu ilə qaçıb özünü

Mərvanın mənzilinə buraxır. Mərvan onu Şama göndərib vəziyyəti şam hakiminə bildirir. Şama çatdıqda hakim ona deyir: "Ey bədbəxt, Allahdan və Peyğəmbərdən utanmadınmı nəqdi-Rəsulullaha bu qəbahəti rəva gördün?"

Bədbəxt Cudə bu əməlindən peşman olub ah-fəğan edir, dünya və axirəti üçün narahat olur. Üç gündən sonra hökm olunur ki, əlləri və ayaqları bağlanıb Fil adasına sürgün edilsin. Rəvayətdir ki, adaya çatanda bir tufan peyda olub o bədbəxti alıb aparır və bir daha ondan heç yerdə əsər görünmür.

**Nəticə.** Daha çox şair kimi tanınan Füzulinin bu nəsr əsərinə nəzər saldıqda zəngin obrazlar aləmi ilə qarşılaşırıq. İstər qadın, istərsə də kişi personajlar hər biri ayrı-ayrılıqda özünəməxsusluğu ilə seçilir. Qadına münasibəti birmənalı olmayan şair, onları həm müsbət, həm də mənfi aspektlərdən təsvir edir. Xeyirlə şər, işıqla qaranlıq daima qarşı-qarşıya olduğu kimi Füzuli də öz əsərində yaxşı və pis, sadiq və xəyanətkar, mərhəmətli və zalım qadınları bizə göstərir. Həvva, Hacər, Xədicə, Fatimə öz sədaqəti, həqiqi eşqi, imanı və ilahi məhəbbəti ilə seçilirsə, Züleyxa zalımlığı, ərəb qadınları riyakarlığı, Ənsunə fitnəkarlığı, Cudə xəyanəti ilə yaddaşlarda qalır. Füzuli sənətkarlığı təkcə şeirdə deyil, nəsrdə də özünü göstərir. Sənətkar obrazları elə incə cizgilərlə işləmişdir ki, oxucu onların hər biri haqqında aydın təsəvvürə malik ola bilir. Əsərin dili nisbətən çətin olsa da, bu onun bədii əhəmiyyətini azaltmır, əksinə daima ədəbiyyatşünasların diqqətini cəlb edir.

**İstifadə edilmiş ədəbiyyat**


1. A.Ş.Qasımova. Quran qissələri XIV – XVI əsrlər Azərbaycan ədəbiyyatının ideya bədii qaynaqlarından biri kimi. Bakı: Bakı Dövlət Universiteti,1998, 436 s.
2. Füzuli M. Əsərləri. Altı clddə. VI cild. Bakı: Şərq-Qərb, 2005, 384 s.



**Açar sözlər:** Füzuli, "Hədiqətüs-süəda", qadın obrazları, Həvva, Fatimə, Zəhra, Cudə
**Key words:** Fuzuli, "Hadiqatus-suada", female images, Eve, Fatima, Zahra, Juda
**Ключевые слова:** Физули, «Хадикатус-суада», женские образы, Ева, Фатима, Захра, Иуда.



## Summary

The image of a woman has always occupied a special place in fiction. A woman has become a symbol of love, a symbol of affection, and even in Sufi literature, authors have described divine love through a woman. First of all, a woman is a human being, and naturally, in a person's character, self, and essence, there may be negative aspects that make her a bad person or a bad woman. In his work "Hadiqatus-suada", Fuzuli, in addition to describing both positive and negative female images, also contrasts the image of a true mother, a devoted woman with a hypocritical, treacherous woman who goes to any lengths to achieve her goal. The author successfully reveals the inner world and character of each character he describes and shows it to his reader. In this sequence, we get acquainted with a new female image in each chapter of the work, which makes it more readable and interesting.



## Резюме

В художественной литературе образ женщины всегда занимал особое место. Образ женской любви стал символом любви, даже в суфийской литературе авторы изображали Божественную любовь через женственность. Прежде всего, женщина-это человек, и, естественно, в характере человека, в его "я" может быть негатив, который делает его плохим человеком, плохой женщиной. Физули в "Хадикатус-суада" изображает не только положительные и отрицательные женские образы, но и противопоставляет образ настоящей матери, верной женщины лицемерным, коварным женщинам, которые идут на все ради достижения своих целей. Автор успешно раскрывает характер каждого изображенного им образа и показывает его своему читателю. В этой последовательности мы встречаем нового женского персонажа в каждой главе произведения, что делает его более читаемым и интересным.

В то время как мы видим, как верующие, верящие женщины получают благую весть о рае и окрашиваются в божественные цвета, мы становимся свидетелями того, как такие женщины, как Жуда и Ансуна, упускают прекрасные благословения как в этом мире, так и в загробной жизни. Неслучайно Аллах помогает Захре и Фатиме в их трудные моменты, но коварная Жуда становится жертвой шторма в награду за свои действия.


**RƏYÇİ: dos. E.Vəliyeva**